UOT: 327: 339.9
DOI: https://doi.org/10.30546/19063.2026.03.005.2032

# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ GÜRCÜSTAN ARASINDA MİQRASİYA PROSESLƏRİNİN TƏNZİMLƏNMƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ: HÜQUQİ-SİYASİ VƏ SOSİAL-İQTİSADİ ASPEKTLƏR

**RASİM NAZİM OĞLU RZAXANOV**
*BDU-nun Beynəlxalq münasibətlər kafedrasının dissertantı*
*Akademik Zahid Xəlilov küçəsi 33, AZ1148*
*https://orcid.org/0009-0001-0340-0291*
*E-mail: rasimrzaxanov@mail.ru*

## XÜLASƏ

Bu məqalədə Azərbaycan Respublikası ilə Gürcüstan arasında miqrasiya proseslərinin tənzimlənməsi sahəsində əməkdaşlığın hüquqi-siyasi və sosial-iqtisadi aspektləri kompleks şəkildə tədqiq edilmişdir. Bu çərçivədə iki ölkə arasında formalaşmış tarixi qonşuluq əlaqələrinin və transmilli iqtisadi layihələrin regional əhali hərəkətliliyinə təsirlərinə xüsusi diqqət yetirilmiş, rəsmi statistik rəqəmlər əsasında təhlillər aparılmışdır. 2016-2023-cü illərdə iki ölkə arasında daimi yaşamaq və turizm məqsədilə emiqrasiya və immiqrasiyasının statistikasının təhlili miqrasiya dinamikasının mövcud vəziyyətini müəyyənləşdirməyə və gələcək inkişaf meyllərini proqnozlaşdırmağa imkan vermişdir. Bununla yanaşı qarşılıqlı əmək miqrasiyasının sosial-iqtisadi dividendləri, investorların yaratdığı iş yerləri və pul köçürmələrinin hər iki ölkənin inkişafına təsirləri də qiymətləndirilmişdir. Siyasi və hüquqi aspektin öyrənilməsi məqsədilə iki ölkənin sərhəd tənzimləmələrinə dair qanunvericiliyi təhlil edilmiş, Gürcüstanın əmək miqrasiyası qanunvericiliyinin yaratdığı yeni hüquqi reallıqlara toxunulmuşdur.

**Açar sözlər:** *Azərbaycan, Gürcüstan, regional miqrasiya, transsərhəd əməkdaşlıq, miqrasiya qanunvericiliyi, statistika.*

## Giriş

Müasir beynəlxalq münasibətlər sistemində regional miqrasiya prosesləri dövlətlərin daxili və xarici siyasətinin, eləcə də milli təhlükəsizlik strategiyalarının ayrılmaz tərkib hissəsinə çevrilmişdir [19]. Cənubi Qafqaz regionunda formalaşan geosiyasi reallıqlar fonunda Azərbaycan Respublikası ilə Gürcüstan arasında formalaşmış çoxşaxəli əlaqələr müstəsna strateji əhəmiyyət kəsb edir. Dövlət müstəqilliklərinin bərpasından sonra Azərbaycan və Gürcüstan arasında formalaşan ikitərəfli əlaqələr yalnız regional layihələrlə məhdudlaşmamışdır. Əhalnin müxtəlif formalarda və intensivliklə yerdəyişməsi müşahidə edilmiş, bu isə miqrasiya sahəsində əməkdaşlığı zəruri etmişdir [18]. Müstəqilliyin ilk illərində belə bir əməkdaşlıq sisteminin olmaması müəyyən gərginliklər yaratmışdır.

1993-cü ildə Azərbaycanda Heydər Əliyevin və Gürcüstanda Eduard Şevardnadzenin hakimiyyətə gəlməsi Cənubi Qafqazda ziddiyyətlərin aradan qalxmasına kömək etdi. Müstəqillik illərində ölkə başçıları öz şəxsi dostluqlarını Azərbaycan-Gürcüstan dostluğuna çevirdilər. Bundan başqa, hər iki ölkədə baş verən proseslər, müstəqilliyin ilk illərində ərazi bütövlüyünün pozulması, separatizm halları, daxili və xarici siyasətin oxşarlığı, geosiyasi maraqların üst-üstə düşməsi və digər amillər ölkələrimiz arasında tərəfdaşlıq münasibətlərinin yaranmasına gətirib çıxardı. Bu Azərbaycan və Gürcüstan dövlətləri arasında siyasi, iqtisadi, mədəni və digər əlaqələrin daha da inkişaf etdirilməsinə səbəb oldu [2, s.74]. Xüsusilə Ümummilli lider Heydər Əliyev iki ölkə arasında mövcud olan münasibətlərin daim mehriban qonşuluq və dostluq səviyyəsində davam etdirilməsinin vacibliyini qeyd edərək deyirdi: “Gürcüstan bizim üçün yaxşı qonşu və dost ölkədir. Çox böyük tarixi əlaqələrimiz var” [10, s.203]. Daha sonra bu siyasəti uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev iki ölkə ərazisində yaşayan xalqlar haqqında demişdir: “Azərbaycandakı gürcülər və Gürcüstandakı azərbaycanlılar bizim böyük zənginliyimizdir” [11, s.219]. Hazırda iki ölkə arasında dövlətlərarası münasibətlər yüksək inkişaf səviyyəsindədir. Bu bir tərəfdən tarixi bağlılıqdır, digər tərəfdən isə regional əməkdaşlığın genişləndirilməsidir ki, regionda Azərbaycanın enerji ehtiyatlarına malik olması xüsusi önəm daşıyır. Eyni zamanda iki dövlət arasında ticarət-iqtisadi və nəqliyyat-kommunikasiya sahəsində son dövrlər böyük uğurlar əldə edilmişdir.

Müasir mərhələdə iki ölkə arasında miqrasiya münasibətlərinin dinamikasını şərtləndirən fundamental amillər mövcuddur. Bir tərəfdən, Gürcüstanda (əsasən Borçalı (Kvemo-Kartli) regionunda) kompakt şəkildə öz tarixi yurdlarında yaşayan etnik azərbaycanlı icması tarixi və mədəni bağların qo-

runmasında mühüm humanitar körpü rolunu oynayır [20]. Digər tərəfdən, 1990-cı illərin əvvəllərində Gürcüstandan miqrasiya edənlərin 60%-dən çoxunun məhz Azərbaycana üz tutması iki ölkə arasındakı mexaniki hərəkətliliyin ilkin tarixi bazasını təşkil etmişdir. Sonrakı onilliklərdə transmilli layihələrin reallaşması miqrasiya proseslərini xaotik xarakterdən çıxararaq idarə olunan, leqal və əmək yönümlü müstəviyə keçirmişdir [17]. Əvvəllər deportasiya olunaraq Gürcüstandan Orta Asiya respublikalarına köçürülən Ahıska türkləri 1989-cu ildə Özbəkistanda baş vermiş münaqişə nəticəsində Azərbaycana pənah gətirdilər. 1989-1991-ci illər ərzində onların sayı 51649 nəfər təşkil etmişdir [1, s.77].

Məqalənin əsas məqsədi Azərbaycan ilə Gürcüstan arasındakı miqrasiya əlaqələrini vahid bir sistem daxilində - sosial-iqtisadi, siyasi və hüquqi aspektləri sintez edərək, xüsusilə son dövrlərin statistik göstəriciləri fonunda kompleks şəkildə təhlil etməkdir.

## Əsas hissə

Miqrasiya proseslərinin idarə edilməsində sosial-iqtisadi amillər hər zaman hərəkətverici qüvvə rolunu oynayır [18]. Son illərdə iki ölkə arasında daimi və müvəqqəti məskunlaşma tendensiyası stabil artan xətt üzrə inkişaf edir. Eləcə də, Azərbaycanda (əsasən şimal-qərb rayonlarında - Qax, Zaqatala) qeydiyyatda olan etnik gürcülərin sayı son siyahıyaalınmaya əsasən 8442 nəfər təşkil edir və bu əhali qrupu stabil demoqrafik göstəriciyə malikdir [21].

Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin (DMX) rəsmi hesabatlarına əsasən, ölkədə olduğu yer üzrə qeydiyyat müraciətləri və yaşama icazələrinin dinamikası ilbəil artmaqdadır. Məsələn: 2024–2026-cı illərin rüblük statistikası göstərir ki, hər rüb miqrasiya idarələrinə əcnəbilər tərəfindən 75,000 ilə 110,000 aralığında ümumi müraciət daxil olur. Bunun təxminən 12,000–25,000 arasındakı hissəsini birbaşa "olduğu yer üzrə qeydiyyat" müraciətləri təşkil edir. Bu müraciətlərin statistik bölgüsündə Rusiya və Türkiyə ilə yanaşı, Gürcüstan vətəndaşları da (xüsusilə əmək icazəsi və müvəqqəti yaşama istiqamətində) ilk üçlükdə yer alırlar [9]. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsi DMX tərəfindən verilir. DMX icazəyə dair qərar verərkən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəyini nəzərə alır. Azərbaycanda bir sıra sahələr var ki, orada iş icazəsi almadan 90 gün ərzində əmək fəaliyyəti ilə məşğul olmaq mümkündür. Belə ki, il ərzində 90 gündən çox olmayan müddətdə Azərbaycan Respublikasında ezamiyyətdə olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdakı fəaliyyət sahələrində iş icazəsi almadan əmək fəaliyyəti ilə məşğul ola bilərlər: mədənçıxarma və emal sənayesi; elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat, informasiya və rabitə, maliyyə və sığorta, təhsil, nəqliyyat, su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi [15].

Siyasi müstəvidə miqrasiya əlaqələri iki müstəqil dövlətin suveren maraqlarının, sərhəd nəzarətinin və regional təhlükəsizlik prioritetlərinin kəsişmə nöqtəsidir [19]. Pandemiya dövründən sonra quru sərhədlərinin tənzimlənməsi rejimində qalan məhdudiyyətlər iki ölkə arasında nəqliyyat və loqistika miqrasiyasına müəyyən təsirlər göstərmişdir. Ölkələr arasında mövsumi işçilərin, həm də təhsil miqrantlarının gediş-gəliş xərclərini və hüquqi baryerlərini minimuma endirmək məqsədi ilə quru nəqliyyat yollarının fəaliyyəti effektiv olardı.

Gürcüstanda illik fəaliyyət planları ilə həyata keçirilən 2021-2030-cu illər üçün Miqrasiya Strategiyası 2020-ci ilin sonunda təsdiq edilib [13]. Strategiyanın əsas məqsədi milli ehtiyac və maraqları, eləcə də yerli, regional və qlobal səviyyələrdə problem və imkanları nəzərə almaqla miqrasiya məsələlərinin inkişaf proseslərinə daxil edilməsini dəstəkləmək və asanlaşdırmaqdır [14]. Gürcüstanda miqrasiya və sığınacaq idarəçiliyi üzrə öhdəliklər Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi (DİN), İşğal olunmuş Ərazilərdən Məcburi Köçkünlərin İşləri üzrə Nazirlik, Əmək, Səhiyyə və Sosial Məsələlər Nazirliyi, Xarici İşlər Nazirliyi (XİN) və bir neçə digər nazirlik arasında bölünüb. Koordinasiya məsələləri isə Katibliyi yerləşən Gürcüstanın Miqrasiya Məsələləri üzrə Dövlət Komissiyasında müzakirə edilir [16].

Postsovet məkanında mövcud miqrasiya proseslərində Cənubi Qafqaz respublikaları arasında – Azərbaycan və Gürcüstan və əksinə, habelə Gürcüstan və Ermənistan arasında miqrasiya prosesləri də yer alırdı. Azərbaycanın əlverişli coğrafi mövqeyi və artmaqda olan iqtisadi imkanları, habelə Ermənistanda getdikcə pisləşməkdə olan sosial-iqtisadi şərait buna stimul verirdi. Gürcüstandakı 2014-cü il əhalinin siyahıya alınmasına görə, bu ölkədə kompakt şəkildə 233 min nəfərdən çox azərbaycanlı yaşamaqdadır. Azərbaycanda 533 gürcü mənşəli kommersiya qurumu fəaliyyət göstərməkdədir. Azərbaycan Gürcüstana 3,4 mlrd ABŞ dolları miqdarında investisiya qoymuşdur. Statistikanın zəifliyinə baxmayaraq Gürcüstandan ölkəmizə əsasən soydaşlarımız mühacirət etməkdədirlər [3]. Aparılan təhlillər tədqiq olunan illərdə Gürcüstandan Azərbaycana mühacirət edənləri 4 kateqoriyaya bölməyə imkan verir: tələbələr, əmək miqrasiyası, Gürcüsta-

nın müstəqilliyinin ilk illərində ölkədən qovulanlar və qarışıq nigahdan olan ailələr və onların övladları. Ekspertlərin fikrincə, tələbələr istisna olmaqla qalan üç kateqoriyanın hamısı problemlidir. Gürcüstanda iş yerlərinin məhdudluğu ucbatından soydaşlarımız Türkiyəyə və Azərbaycana üz tuturlar, ölkədə qarışıq nigahdan olan 30 min nəfərə yaxın ailə var. Gürcüstandan qovulan iki min nəfərə yaxın soydaşımız respublikamızda məskunlaşmışdır ki, bunların Azərbaycan vətəndaşlığı olması ağır problemə çevrilmişdir [12].

Gürcüstan azərbaycanlılarının respublikamıza gəlişi və burada qalma müddətinə edilən güzəştlər Respublika Dövlət Miqrasiya Xidməti tərəfindən tənzimlənirdi və vizasız gediş-gəliş qaydasına əsasən qonşu ölkənin vətəndaşları olan soydaşlarımıza Azərbaycanda 90 günədək qalma möhləti verilirdi. DMX-nın məlumatına əsasən, miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozmuş 980 nəfər Gürcüstan vətəndaşı, əsasən soydaşlarımız onlara tətbiq edilməli olan cərimələrdən azad edilmişdilər [9]. İki ölkə arasında daimi yaşamaq və turizm məqsədilə 2016-2023-cü illəri əhatə edən emiqrasiya və immiqrasiyanın statistikası aşağıdakı cədvəllərdə aydın şəkildə göstərilmişdir: [7, s.561-562; 4].

**Cədvəl № 1. Daimi yaşamaq üçün**

| Ölkələr / İllər | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Gürcüstandan Azərbaycana gələnlər | 1134 | 830 | 914 | 747 | 663 | 900 | 980 | 1253 |
| Azərbaycandan Gürcüstana gedənlər | 27 | 31 | 28 | 29 | 12 | 18 | 42 | 81 |

**Cədvəl № 2. Turizm üzrə**

| Ölkələr / İllər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 | 2025 yanvar fevral |
|---|---|---|---|---|---|---|---|---|---|
| Gürcüstandan Azərbaycana gələnlər | 537 710 | 610 124 | 725 174 | 184 253 | 62 512 | 82 225 | 104 473 | 111 292 | 8 710 |
| Azərbaycandan Gürcüstana gedənlər | 1 373 468 | 1 431 406 | 1 606 886 | 306 982 | 75 763 | 127 769 | 168 399 | 187 740 | 33 644 |

Miqrasiya proseslərinin mühüm əlamətlərindən biri də bu prosesdə xarici vətəndaşlara daşınar və daşınmaz əmlakın alınmasına icazə verilməsidir. Belə ki, Gürcüstanın Miqrasiya Məsələləri üzrə Dövlət Komissiyasının hesabatında 2015-2018-ci illərdə əcnəbi vətəndaşların Gürcüstanda aldığı daşınmaz əmlakın 40 faizinin (15.133 ədəd) Rusiya vətəndaşlarına məxsus olduğu bildirilmişdi. Son dörd ildə Azərbaycan vətəndaşlarının adına 1192 daşınmaz əmlak alınması da hesabatda yer almışdı. Sənəddə Gürcüstanda Ermənistan vətəndaşlarının 1447, Türkiyə vətəndaşlarının 1226, İran vətəndaşlarının 5598, ABŞ vətəndaşlarının 1182, Ukrayna vətəndaşlarının 2599, İsrail vətəndaşlarının isə 1634 daşınmaz əmlak aldıqları öz əksini tapmışdı ki, bunların da əksəriyyəti mənzil, kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı torpaqları olmuşdu. Bununla belə, qeyd edək ki, Gürcüstan qanunvericiliyinə əsasən kənd təsərrüfatına yararlı sayılan torpaqların xaricilərin mülkiyyətinə verilməsi qadağan edildiyinə görə, bu sahəyə o qədər də diqqət yetirilmir və ya bu məqsədlə gürcü vətəndaşların adından istifadə edilməklə alqı-satqı həyata keçirilmişdi [6]. Bu həm də Gürcüstanın ölkəyə xarici investisiyaların yatırılmasından xeyli qazanc qazanc əldə etməsidir.

**Nəticə**

Azərbaycan Respublikası və Gürcüstan arasında miqrasiya əlaqələrinin 2012-2026-cı illəri əhatə edən statistik və hüquqi təhlili göstərir ki, regional miqrasiya idarəçiliyi artıq tam institusional mərhələyə qədəm qoymuşdur. Keçmiş illərin xaotik və kortəbii köç trendləri yerini hər iki dövlətin milli maraqlarına və əmək bazarının tələblərinə cavab verən leqal və tənzimlənən mexanizmlərə vermişdir. Sosial-iqtisadi kontekstdə, Azərbaycanın Gürcüstan iqtisadiyyatındakı investisiya payı getdikcə artmaqdadır.

Hüquqi müstəvidə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi [5] və Gürcüstanın miqrasiyası qaydaları və sərt nəzarət mexanizmləri subyektlərinin leqal müstəvidə qalmasını məcburi edir. Belə ki, Gürcüstana daxil olan bütün xarici vətəndaşlar ölkədə qaldıqları müddət ərzində tibbi sığortaya malik olmalıdırlar. Gürcüstan hökumətinin "Gürcüstana gələn turistlərin icbari sağlamlıq və bədbəxt hadisələrdən sığorta qaydaları və şərtlərinin təsdiq edilməsi haqqında" qərara əsasən bu ilin yanvarından qüvvəyə minib [8]. Qaydalar Gürcüstana turizm, işgüzar və ya tranzit məqsədilə daxil olan bütün xarici vətəndaşlara şamil olunur. Xarici vətəndaşlar Gürcüstanda olduqları bütün müddət ərzində, yəni giriş tarixindən çıxış tarixinədək qüvvədə olan tibbi sığorta və bədbəxt hadisələrdən sığorta polisinə malik olmalıdırlar.

İstənilən halda həyata keçirilən tədbirlər kölgə iqtisadiyyatının və qanunsuz miqrasiyanın qarşısını almaq üçün öz müsbət təsirini göstərəcəkdir. Bununla belə bir sıra elmi və praktiki addımların atılması da yaxşı olardı. Belə ki, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti ilə Gürcüstanın Sakstat idarəsi arasında miqrasiya sahəsində əlaqələrin tək-

milləşdirilməsi və statistika şəffaflığının qorunması, yeni əmək qaydaları barədə hər iki ölkə vətəndaşlarının və iş adamlarının hüquqi maarifləndirilməsinin artırılması xüsusi əhəmiyyət kəsb edir. Yekun olaraq onu deyə bilərik ki, Bakı və Tbilisi arasında formalaşan miqrasiya əlaqələri yalnız iki ölkənin suveren təhlükəsizliyini qorumur, həm də bütün Cənubi Qafqaz regionunun sabit gələcəyinə xidmət edir.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Abdullayev F.N. Müasir Azərbaycan dövlətinin miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq. Bakı, "Elm və Təhsil", 2009, 328 s.*

*2. Azərbaycan – Gürcüstan: dostluğun inkişaf yolu (Araşdırma) Bakı, "Qaya Nəşriyyat", 2017, 224 səh.*

*3. Azərbaycan-Gürcüstan münasibətləri daha da genişlənir: [Elektron resurs] / Qafqazinfo.az, 08.10.2023, URL: https://qafqazinfo.az/news/detail/azerbaycan-gurcustan-munasibetleri-daha-da-genislenir-414656*

*4. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi - Statistika: [Elektron resurs] / Tourism.gov.az, http://www.tourism. gov.az/page/ statistics*

*5. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, E-qanun.az rəsmi portalı.*

*6. Azərbaycan vətəndaşları son 4 ildə Gürcüstanda 1200-ə yaxın daşınmaz əmlak alıb: [Elektron resurs] / Banker/az, 04/11/2019, URL: https://banker.az/az%C9%99rbaycan-v%C9%99t%C9%99ndaslari-son-4-ild%C9%99-gurcustanda-1200-%C9%99-yaxin-dasinmaz-%C9%99mlak-alib/*

*7. Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə, 2024. Bakı, "AZMEGA GROUP MMC", 2024, - 614 s.*

*8. Diqqət: Gürcüstana getmək istəyənlər... - Yeni qanun: [Elektron resurs] / URL: Axar.az, 01.01.2026, https://axar.az/news/toplum/1047999.html*

*9. Dövlət Miqrasiya Xidməti Gürcüstan azərbaycanlılarına bir daha xatırladır ki... [Elektron resurs] / Modern.az, 01.02.2013, URL: https://modern.az/az/aktual/34048/dvlet-miqrasiya-xidmeti-gurcustan-azerbaycanlilarina-bir-daha-xatirladir-ki/*

*10. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir [46 clddə] / H.Əliyev. – Bakı: Azərnəşr – c. 5 – 1998, 500 səh.*

*11. Əliyev, İ.H. İnkişaf məqsədimizdir, [104-clddə] / İ.Əliyev. – Bakı: Azərnəşr – c. 61. – 2018. – 400 s .*

*12. Gürcüstan azərbaycanlılarının miqrasiya problemi barədə: [Elektron resurs] / Turan.az, 13.12.2018, URL: https://turan.az/az/cemiyyet/gurcustan-azerbaycanlilarinin-miqrasiya-problemi-barede*

*13. Gürcüstanın Miqrasiya Məsələləri üzrə Dövlət Komissiyası "Miqrasiya strategiyası", https:// migration.commission.ge/index.php?article_id=216&clang=1*

*14. Gürcüstanın Miqrasiya Məsələləri üzrə Dövlət Komissiyası, https://migration.commission.ge/index.php?article_id=1&clang=1*

*15. İl ərzində 90 gündən çox olmayan müddətdə Azərbaycan Respublikasında ezamiyyətdə olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin alınması tələb olunmayan fəaliyyət sahələrinin Siyahı"sının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı – https://e qanun.az/framework/28888*

*16. MSİBM "Miqrasiyaya baxış, Şərqi Avropa və Mərkəzi Asiya 2022", https://www.icmpd.org/file/download/56967/file/ICMPD_Migration_Outlook_EasternEuropeCentralAsia_2022.pdf*

*17. Adli, M. (2024). Migration Processes in Azerbaijan and their Effects on the Sustainable Development of the Enterprise Economy. International Journal of Advanced Natural Sciences and Engineering Researches, 8(6), 9-22, ResearchGate.*

*18. Aliyev, A. (2011). Azerbaijan and Georgia: A Migration Success Story Takes Shape in the South Caucasus. Eurasianet Analysis.*

*19. Cornell, S. E. (2014). Azerbaijan and Georgia: Asymmetrical Relations and Regional Security in the South Caucasus. Central Asia and the Caucasus, Volume 15, Issue*

*20. ISET Policy Institute. (2025). Migration Trends in Georgia: 2015-2024 Policy Paper. ISET-PI Reports.*

*21. National Statistics Office of Georgia (Geostat). (2026). Demographic and Mechanical Movement Indicators of Georgia. Geostat Official Database.*


## Socio-economic, political, and legal aspects of migration relations between the Republic of Azerbaijan and Georgia


**Rasim Nazim Rzakhanov**
***Ph.D. Candidate at the Department of International Relations, Baku State University***



**SUMMARY**

This article comprehensively analyzes the migration relations between the Republic of Azerbaijan and Georgia from socio-logistical, economic,

political, and treaty-legal perspectives. Within the framework of the study, the impact of historical neighborhood ties and transnational economic projects established between the two countries on regional population mobility is examined based on official statistical data. The article provides a comparative presentation of the dynamics of migration flows covering the years 2012–2026, drawing specifically on reports from regional research institutes and the State Migration Service. The socio-economic dividends of mutual labor migration, jobs created by investors, and the contribution of remittances to the demographic structures of both countries are evaluated. From a political and legal standpoint, the border regulations of the two countries are interpreted alongside the new legal realities brought about by the new labor migration legislation that entered into force in Georgia in 2025–2026.

**Keywords:** *Azerbaijan, Georgia, regional migration, transborder cooperation, migration legislation, statistics.*

## Социально-экономические, политические и правовые аспекты миграционных отношений между Республикой Азербайджан и Грузии

**Расим Назим Рзаханов**
***Диссертант кафедры международных отношений Бакинского Государственного Университета (БГУ)***

### РЕЗЮМЕ

В данной статье комплексно анализируются миграционные отношения между Азербайджанской Республикой и Грузией в социально-логистической, экономической, политической и договорно-правовой плоскостях. В рамках исследования на основе официальных статистических данных рассматривается влияние сформировавшихся между двумя странами исторических добрососедских связей и транснациональных экономических проектов на региональную мобильность населения. В статье приводится сравнительный анализ динамики миграционных потоков, охватывающих 2012–2026 годы, в частности, на основе отчетов региональных исследовательских институтов и Государственной миграционной службы. Оцениваются социально-экономические дивиденды взаимной трудовой миграции, рабочие места, созданные инвесторами, и вклад денежных переводов в демографическую структуру обеих стран. В политическом и правовом аспектах комментируются пограничные регулирования двух стран, включая новые правовые реалии, обусловленные новым законодательством о трудовой миграции, вступившим в силу в Грузии в 2025–2026 годах.

**Ключевые слова:** *Азербайджан, Грузия, региональная миграция, трансграничное сотрудничество, миграционное законодательство, статистика.*

*Rəyçi: Siyasi elmlər üzrə fəlsəfə doktoru,*
*dosent Qurban Məmmədov*
*Məqalə redaksiyaya daxil olub: 20.02.2026*
*Çapa qəbul olunub: 29.02.2026*

*The date of the admission of the article to the editorial office: 20.02.2026*
*Accepted for publication: 29.02.2026*